# Özünə yer tapa bilməyən daşlar və ya saxtalaşdırılan türk tarixmiz



Güllü Yoloğlu

Dünya Türkologiya Mərkəzinin rəhbəri

***Bu günlərdə "Kadra düşməyən həqiqətlər" verilişində "Dədə Qorqud" filmi haqqında danışmaq üçün təklif aldım. Doğrusu, təklif ürəyimdən oldu. Çünki uzun illərdir ki, "Kitab-i Dədə Qorqud" dastanlarını araşdırıram. Özümün də 1999-cu ildə işıq üzü görən "Dədə Qorqud yaşı" kitabım, çoxlu sayda məqaləm var. Yaşadığım yeni qəsəbəyə də Dədə Qorqud adının verilməsindəazacıq da olsa, göstərdiyim xidmət nəticə olandan sonra qürur hissi verməyə bilmir...***

Təbii ki, nə qədər oxusan da, tamaşaçı qarşısına çıxmağın məsuliyyəti tamam başqadır. Filmə yenidən baxdım. Baxmaz olaydımg Adama deyərlər "sənə bu lazım idi?" Hə. Lazım idi. Həm də çoxdan. Elə filmin ilk dəqiqələrindən diqqətimi məni əvvəllər də narahat edən daşdan yonulmuş insan fiqurları çəkdi. Məlum idi ki, bu fiqurları məxsusi film üçün 1975-ci ildə, yəni "Dədə Qorqud" filminin çəkilişi üçün daşdan yonmuşdular. Filmdə heykəllərin bəziləri ssenariyə uyğun sındırılmışdı. Aydındır ki, əsl tarixi abidə sındırıla bilməzdi. Bu bir daha sübut edirdi ki, heykəllər sadəcə film üçün hazırlanmışdır. Lap yaxşı. Əslində daşdan yonulmuş insan fiqurlarına Sibirdən tutmuş Balkanlara qədər hər yerdə rast gəlirik. Bəs onda məni narahat edən nə idi? Gülməli də olsa, insanların başlarıg

Bilirik ki, daş heykəllər qədim türklərə məxsus olduqları üçün sadə dillə desək, yumru baş, qıyıq göz, əsasən bığlı, çox vaxt da əllərində qab təsvir olunurlar. Bunlar elmə yaxşı məlum olduğundan dərinliyinə varmıram.



Qədim türklərə məxsus balballar deyilən daşdan yonulmuş insan fiqurları

Lakin "Dədə Qorqud" filmindəki daş insan fiqurlarının başları həddindən artıq uzunsovdur. Zahirən qədim türklərin daş fiqurları ilə heç bir əlaqəsi olmayan bu fiqurlar mənə başqa bir yerdə qoyulan eyni fiqurları xatırlatdıg İçərişəhərdə, Qız qalasının yanında Sıratağlı Dini-Memarlıq Kompleksindəki iki heykəli...



"Dədə Qorqud" filmindəki heykəllər

İnternetdə axtarış verdim,lakin İçərişəhərdə qoyulan daş fiqurlar haqqında bir şey tapa bilmədim.



***Daha dəqiq məlumat almaq məqsədilə internetdən götürdüyüm əlaqə nömrəsinə zəng vurdumg Bir xanım götürdü. Dedim ki, xanım, AzTV-dən zəng vururam. Məni Qız qalasının yanındakı heykəllər arasındakı iki insan heykəli maraqlandırır. Necə məlumat ala bilərəm? Xanım dedi ki, bunu bilən Günay (ya Günel) xanım icazəlidir. Bu gün işə gəlməyib. Mən xahiş edib həmin xanımın mobil nömrəsini aldım və zəng edib sualımı verdim. O da flash kartında olan materialı mənə göndərdi, amma sualıma cavab ala bilmədim. Sağ olsun, xəstə olsa da, mənə "İçərişəhər" Muzey Mərkəzinin elmi katibi, Əməkdar Mədəniyyət işçisi, tarixçi Səadət Ələkbərovanın nömrəsini verdi. Deyəcəksiniz, mətləbə gəl. Nəyimizə lazımdır bu qədər təfərrüat? Dözün! Sözümün canı var. ..***

Səadət xanıma belə yazdım:




Səadət xanım söz verdiyi yazını yox,hərəsi 16 dəqiqəlik iki səsli mesaj atdı. Sağ olsun,ümumiyyətlə daş fiqurlar haqqında, qəbirlər haqqında danışdı və dedi ki, bunlar yalnız qəbirüstü deyil, eyni zamanda həm arxadakı, həmdə öndəki, yəni məni narahat edən heykəllərin əllərini sinələrində tutmaları onların dua etdiklərini göstərir. Belə daşların çoxu "sadəcə bir gözəllik yaratmaq xatirinə yaradılmış daşlardır" deyərək boynuna aldı ki, sırf bu daşları araşdırmayıb, sadəcə ekspozisiya üçün əldə etdiyi məlumatları deyib. Danışdıqlarını da yazı formasında verməyimə icazə verdi.Ona görə də sağ olsun!

Mənim zəngin arxivim olduğunu bilənlər bilir. Hələ neçə illər bundan əvvəl də mən görkəmli ictimai xadim Həsən Həsənovun Qız qalası ilə bağlı kitabının çəkilişində olarkən həmin heykəlləri çəkmişdim. Bu günlərdə də çəkdim.Həmin iki heykəlin altında belə bir lövhə qoyulub.






Bəli, bəli: Daş büt, e.ə.IV-I əsrlər. İbadət məqamı

Tanış gəldi bu daşlar sizə? Elədir ki, var. 1975-ci ildə "Dədə Qorqud" filmindəki daşlardır.

"Dədə Qorqud" filmindəki daş fiqurlar



Sıratağlı Dini-Memarlıq Kompleksindəki lap öndə duran iki heykəl



Yolda ikən zəng gəldi. İdarədən Selcan adında gənc bir xanım idi. Dedi ki, mən burda soruşdum ki, o iki daşla maraqlanırlar. Dedilər ki, niyə maraqlanırlar? O daşların heç bir tarixi əhəmiyyəti yoxdur. Əvvəllər hansısa mağazanın qabağında olub, sonra harasa qoyublar, sonra da gətirib ora qoyublar. Hətta mən deyəndə ki, altında e.ə.IV-I əsr yazılıb, Selcan xanım xeyli təəccübləndi.

***Ən maraqlısı ertəsi gün oldu. İdarədən ? (adını hələ yazmıram. Ola bilsin ki, ona yanlış məlumat veriblər) xanım adlı birisi zəng vurub hikkəli səslə məni sorğu-suala tutmağa başladı. Niyə getmisiniz? Niyə çəkmisiniz? Niyə orda qalmaqal yaratmısınız? və s., və i. Maraqlıdır ki, dediklərini də sonra silirdi. Mən də sildiyini görüb bacardıqlarımı başqa nömrəmə göndərirdim ki, sabah əlimdə sübutum olsun. Yaxşıca təhqir etdi, axırıncı sözü də bu oldu ki, "Doğrudan da bizim elmimiz sizə tabedisə, vay bizim halımıza, vay"...***

Elmimiz niyə mənə tabe olur? Niyə vay? Nə isə. Bunları qoyuram bir tərəfə. Tanıyan tanıyır, bilən bilir. Bilməyən də 26 ildir nə Azərbaycan televiziyasına baxmır, nə Azərbaycan radiosunu dinləmir, nə kitab oxumur, nə də qəzetdən xəbəri yoxdur... Özləri bilərlər... Mən dollar deyiləm ki, hamı tanıya...

İndi bir az ciddiləşək.

Azacıq "Dədə Qorqud" filmi haqqında. Bilirik ki, film yazıçı Anarın "Dədə Qorqud" povesti əsasında çəkilib və "Kitab-i Dədə Qorqud" yazılı abidəmizdən xeyli fərqlənir. Tamaşaçısı çox olan film oxucusu az olan orijinalı kölgədə qoyur, insanlar daha çox filmi yadda saxlayır, filmə baxdıqlarından, orijinalı oxumadıqlarından bu dəyərli tarixi abidəmiz haqqında doğru-düzgün təsəvvür əldə edə bilmirlər. Filmdə bəzi məqamlar var ki, türk xalqlarının birliyi ideyasına güclü zərbə vurur.Məsələn, filmdə əsərdəki Şöklü Məlik Qıpçaq Məlik kimi verilmiş, ətrafındakılar vəhşi kimi, qadınları isyarı çılpaq, əxlaqsız göstərilmişdir. Ən azından Nizaminin qıpçaq qızı Appaqını yada salaq...

Bu gün Azərbaycanın sədrlik etdiyi Türk dilli dövlətlərin Əməkdaşlıq Şurasının əsası 3 oktyabr 2009-cu ildə Naxçıvanda qoyulub. Bu qurumda aparıcı yerlərdən birini Qazaxıstan tutur. Qazaxıstandakı qazax türkləri isə qıpçaqdırlar. Tatarlar və digər qıpçaq türklərimiz də var. Çox təəssüf ki, filmə baxanlarda qıpçaqlara qarşı ikrah və düşmənçilik hissi yaranır. Azərbaycan xalqının yalnız oğuzlardan ibarət olduğunu düşünənlər yanılırlar. Ə.Dəmirçizadə, A.Axundov, N.Cəfərov kimi dilçi alimlərimiz çoxdan sübut ediblər ki, Azərbaycan türkcəsi oğuz və qıpçaq ləhcələrindən təşəkkül tapmışdır. Ən adi iki misalla başqa məsələyə keçirəm: "ata" və "yaxşı" sözlərini çox işlədirik. Bunlar qıpçaq kəlmələridir. Oğuzlar isə "baba" və "iyi" deyirlər... Haqqında danışdığımız "Kitab-i Dədə Qorqud" dastanlarının adı "Kitab-i Dədə Qorqud a-la lisan-i oğuzan" olsa da, dili yarıbayarı oğuz və qıpçaq sözlərindən ibarətdir. Bunu da Nəsimi adına Dilçilik İnstitutunda aparılan araşdırmaların nəticəsi olaraq mərhum alimimiz A.Axundov ümummilli liderimiz Heydər Əliyevin Dədə Qorqudun 1300 illiyi ilə bağlı toplantıdakı çıxışında demişdir...

> ***Ən maraqlısı ertəsi gün oldu. İdarədən ? (adını hələ yazmıram. Ola bilsin ki, ona yanlış məlumat veriblər) xanım adlı birisi zəng vurub hikkəli səslə məni sorğu-suala tutmağa başladı. Niyə getmisiniz? Niyə çəkmisiniz? Niyə orda qalmaqal yaratmısınız? və s., və i. Maraqlıdır ki, dediklərini də sonra silirdi. Mən də sildiyini görüb bacardıqlarımı başqa nömrəmə göndərirdim ki, sabah əlimdə sübutum olsun. Yaxşıca təhqir etdi, axırıncı sözü də bu oldu ki, "Doğrudan da bizim elmimiz sizə tabedisə, vay bizim halımıza, vay"...***

***Bizim zəngin tariximizlə heç bir əlaqəsi olmayan fiqurları filmdən çıxarda bilməsək də, Sıratağlı Dini-Memarlıq Kompleksindən çıxarda bilərik. Bunun üçün sadəcə istək lazımdır. O fiqurların yerli və xarici turistlərin çox gəldiyi bir yerdə qoyulması tarixi keçmişimiz haqqında yanlış təsəvvür yaradır.***